# MALAKİ PEYĞƏMBƏRİN KİTABI

## GİRİŞ

*«Malaki»* Kitabında təsvir olunan hadisələr miladdan əvvəl VI əsrdə Yerusəlimdəki məbədin yenidən tikilməsindən sonrakı dövrə aiddir. «Malaki» adı ibrani dilində «Mənim elçim» deməkdir.

Peyğəmbərin əsas qayğısı kahinlərin və xalqın Allahla bağladığı əhdə sadiq qalmasıdır. Allah xalqının həyatında və Allaha ibadətində qüsurlar var idi. Onlar yollarını azmışdı. Kahinlərlə xalq təqdim və ianələri sidq ürəkdən vermir, Allaha hiyləgərliklə yanaşır və Onun təliminə uyğun yaşamırdılar. Amma Rəbb, yolunu hazırlamaq və əhdini elan etmək üçün Öz elçisini əvvəlcədən göndərəcək, sonra Özü xalqını mühakimə və pak etmək üçün gələcək.

**Kitabın məzmunu:**

1:1–2:16 İsrailin günahları
2:17–4:6 Allahın məhkəməsi və mərhəməti

1 Bu xəbərdarlıq Rəbbin Malaki vasitəsilə İsrailə
dediyi sözdür.

*Rəbbin İsrailə məhəbbəti*

2 * * Rəbb «sizi sevdim» deyir. Ancaq siz
«Bizi necə sevdin?» deyib soruşursunuz. Rəbb

* **1:2** Rom. 9:13 * **1:2** Yeş. 34:5-17; 63:1-6; Yer. 49:7-22; Yez. 25:12-14; 35:1-15; Amos 1:11-12; Avd. 1-14

də cavab verir: «Esav Yaqubun qardaşı dey-
ildimi? Amma Mən Yaqubu sevdim, 3 Esava
isə nifrət etdim. Onun dağlarını viran etdim,
mirasını çöl çaqqallarına verdim». 4 Edomlular
deyir: «Biz əzildik, amma yenidən xarabalıqları
bərpa edəcəyik». Ancaq Ordular Rəbbi belə deyir:
«Qoy onlar qursun, amma Mən yıxacağam. On-
ların ölkəsi pislik ölkəsi, özləri isə həmişə Rəbbin
qəzəbləndiyi xalq olaraq tanınacaq». 5 Siz bunu
gözlərinizlə görəndə «Rəbb İsrail sərhədlərindən
kənarda da əzəmətlidir!» deyəcəksiniz.

### *Kahinlərə məzəmmət*

6 Ordular Rəbbi sizə deyir: «Ey adıma hörmət
etməyən kahinlər! Oğul atasına, qul ağasına
hörmət göstərir. Əgər Mən atayamsa, hanı Mənə
hörmətiniz? Əgər ağayamsa, hanı Məndən qorx-
unuz? Ancaq siz "Adına necə hörmət etmədik?"
deyib soruşursunuz. 7 Qurbangahımın üzərində
murdar çörək təqdim edirsiniz, hələ "Səni necə
murdar etdik?" deyib soruşursunuz. "Rəbbin
süfrəsinə hörmət etmək lazım deyil" deməklə belə
edirsiniz. 8 * Kor heyvanı qurban olaraq gətirmək
pis iş deyilmi? Topal yaxud xəstə heyvan qurban
etmək pis iş deyilmi? Belə bir heyvanı öz valinə
təqdim et, gör səndən razı qalırmı yaxud səni qəbul
edirmi?» deyir Ordular Rəbbi. 9 «İndi bizə lütf
etməsi üçün Allaha yalvarın. Siz belə qurbanlar
gətirərkən O heç sizi qəbul edərmi?» deyir Ordular
Rəbbi.
10 «Kaş ki aranızdan bir nəfər qurbangahımda
boş-boşuna od yandırmamaq üçün məbədin

---

* **1:8** Qanun. 15:21

qapılarını bağlayaydı! Mən sizdən razı deyiləm,
gətirəcəyiniz qurbanları da qəbul etməyəcəyəm»
deyir Ordular Rəbbi. 11 «Günəşin çıxdığı yerdən
batdığı yerə qədər Mənim adım millətlər arasında
əzəmətli olacaq. Hər yerdə adıma buxur
yandırılacaq, pak təqdimlər gətiriləcək. Çünki
millətlər arasında adım əzəmətli olacaq» deyir
Ordular Rəbbi.
12 «Siz “Rəbbin süfrəsi murdardır, çörəyinə
isə hörmət etmək lazım deyil” deyərək adımın
müqəddəsliyini pozursunuz. 13 Üstəlik “bu nə
zəhmətdir” deyə Mənə burun sallayırsınız» deyir
Ordular Rəbbi. «Siz qurban olaraq oğurluq, çolaq,
xəstə heyvan gətirirsinizsə, Mən onu sizdən qəbul
edəcəyəmmi?» deyə soruşur Rəbb. 14 «Sürüsündən
nəzir etdiyi erkək heyvan əvəzinə Rəbbə qüsurlu
heyvan qurban edən fırıldaqçıya lənət olsun! Çünki
Mən böyük bir padşaham və adım millətlər arasında
zəhmlidir» deyir Ordular Rəbbi.

# 2

1 «İndi, ey kahinlər, bu əmr sizin üçündür».
2 Ordular Rəbbi deyir: «Əgər sözə qulaq asmasanız,
adıma izzət verməyi ürəkdən istəməsəniz, üzərinizə
lənət yağdırıb xeyir-dualarınızı lənətə çevirəcəyəm.
Bəli, Mən onları lənətlədim. Çünki Məni
izzətləndirməyi ürəkdən istəmirsiniz. 3 Mən sizin
nəslinizi məzəmmət edəcəyəm. Bayramlarınızda
qurban etdiyiniz heyvanların təzəyini üzünüzə
çırpacağam, siz onunla birgə atılacaqsınız. 4 * Onda
biləcəksiniz ki, Mən bu əmri Levi ilə bağladığım
əhdimin yaşaması üçün sizə göndərmişəm» deyir

* **2:4** Say. 3:11-13

Ordular Rəbbi. 5 * «Onunla həyat və sülh verən
bir əhd bağladım, Mənə hörmət etdiyi təqdirdə
bunları ona verdim. O da Məndən qorxub
adıma hörmət göstərdi. 6 Onun dilindən həqiqi
nəsihət çıxardı, ağzından hiylə çıxmazdı. O, sülh
və düzlük içində Mənimlə bir yol gedirdi. Çoxunu
da günah yolundan qaytarmışdı. 7 Kahinin ağzı
biliyi qorumalı, insanlar onun dilində nəsihət
axtarmalıdır. Çünki o, Ordular Rəbbinin elçisidir.
8 Ancaq siz yoldan azdınız və nəsihətinizlə çox
adamı günaha çəkdiniz. Levi ilə bağladığım əhdi
pozdunuz» deyir Ordular Rəbbi. 9 «Siz Mənim
yollarımla getmədiniz, qanunla bağlı məsələlərdə
tərəfkeşlik etdiniz. Buna görə də Mən bütün xalqın
önündə sizi alçaldıb xəcalətli hala saldım».

### *Yəhuda xalqının xəyanəti*

10 Hamımızın atası bir deyilmi? Bizi eyni Allah
yaratmadımı? Elə isə nə üçün biz atalarımızın
bağladığı əhdi pozaraq öz qonşumuza xəyanət
edirik? 11 Yəhuda xalqı xəyanət etdi. İsraildə və
Yerusəlimdə iyrənc işlər edildi: Yəhudalılar yad
allahlara tapınan qızlarla evlənərək Rəbbin sevdiyi
müqəddəs yeri murdar etdi. 12 Bunu edən adam
hətta keşik çəksə, cavabdeh olsa, Ordular Rəbbinə
qurban gətirsə də, Rəbb onu Yaqubun icmasından
qovsun.
13 Siz başqa bir şeyi də edirsiniz: ağlayıb
sızlamaqla Rəbbin qurbangahını göz yaşları ilə
doldurursunuz. Çünki Rəbb artıq gətirdiyiniz
qurbanlara diqqət etmir, onları sizdən könül
xoşluğu ilə qəbul etmir. 14 Siz «Nə üçün?»

* **2:5** Say. 25:12

deyib soruşursunuz. Çünki səninlə cavanlığında
evləndiyin arvadın arasında Rəbb şahiddir. O qadın
sənin yoldaşın və nikah əhdi ilə arvadın olduğu
halda ona xəyanət etdin. 15 Allah sizi bir bədən
olaraq yaratmadımı? Bədənlə də, ruhla da Ona
aidsiniz. Bəs nə üçün bir? Çünki O Özü üçün xüsusi
bir nəsil istəyirdi. Buna görə də özünüzü gözləyin.
Qoy heç kəs cavanlığında evləndiyi arvadına
xəyanət etməsin. 16 İsrailin Allahı Rəbb belə deyir:
«Mən nikahını pozub qəddarlığa bürünən adama
nifrət edirəm. Buna görə də özünüzü gözləyin və
xəyanət etməyin» Ordular Rəbbi deyir.

### *Əhd Mələyinin gəlməsi*

17 Dediklərinizlə Rəbbi yordunuz. «Onu nə ilə
yorduq?» deyə soruşursunuz. «Pislik edən hər kəs
Rəbbin gözündə yaxşıdır və Rəbb onlardan razıdır»
yaxud «Ədalət keşikçisi olan Allah haradadır?»
deyərək Onu yordunuz.

# 3

1 * «Budur, Mən Öz elçimi göndərirəm. O,
önümdə yol hazırlayacaq. Axtardığınız Xudavənd
qəflətən Öz məbədinə gələcək. Görmək arzusunda
olduğunuz Əhd Mələyi gələcək» deyir Ordular
Rəbbi. 2 * «Ancaq Onun gələcəyi günə kim tab
gətirə bilər? Zühur edəndə kim davam gətirə bilər?
Çünki O, əridicinin odu, yuyucunun sabunu kimi
olacaq. 3 O, gümüş əridib təmizləyən adam kimi
rəftar edəcək: Levililəri saflaşdırıb qızıl və gümüşü
təmizləyən kimi təmizləyəcək. Beləcə salehliklə

---

* **3:1** Mat. 11:10; Mark 1:2; Luka 1:76-77; 7:27 * **3:2** Vəhy 6:17

Rəbbə qurbanlar gətirəcəklər. 4 Onda Yəhudanın
və Yerusəlimin qurbanları əvvəlki vaxtlar, keçmiş
illərdə olduğu kimi Rəbbə xoş gələcək.
5 Mən cəza vermək üçün sizə yaxınlaşacağam.
Ovsunçulara, zinakarlara, yalandan and içənlərə,
muzdurun, dul qadının, yetimin, qəribin haqqını
tapdalayanlara – Məndən qorxmayanlara qarşı
tezliklə şahid olacağam» Ordular Rəbbi belə deyir.

### *Ondabirləri oğurlayanları məzəmmət*

6 «Mən Rəbbəm və heç vaxt dəyişmirəm. Siz
bunun üçün məhv olmadınız, ey Yaqub övladları!
7 Atalarınızın dövründən bəri qaydalarımdan
döndünüz və onlara əməl etmədiniz. Mənə
tərəf dönün, Mən də sizə tərəf dönərəm» deyir
Ordular Rəbbi. «Siz “Necə dönək?” deyə
soruşursunuz. 8 İnsan da Allahdan oğurlayarmı?
Siz isə Məndən oğurlayırsınız. “Səndən nəyi
oğurlayırıq?” deyə soruşursunuz. Onda birləri
və təqdimləri oğurlayırsınız. 9 Siz böyük lənətə
düçar oldunuz. Çünki bütün millət – hamınız
Məndən oğurlayırsınız. 10 * Bütün ondabirlərinizi
anbara gətirin ki, məbədimdə ərzaq olsun».
Ordular Rəbbi deyir: «Siz bununla Məni sınayın.
Görəcəksiniz ki, göylərin pəncərələrini sizə
açacağam, üzərinizə ehtiyaclarınızdan da çox
bərəkət yağdıracağam. 11 Çəyirtkələri * əkinlərinizi
yeməyə qoymayacağam, tarlada meynəniz
məhsulsuz qalmayacaq» deyir Ordular Rəbbi.
12 «Bütün millətlər sizi bəxtiyar sayacaq. Çünki
ölkəniz gözəl bir yer olacaq» deyir Ordular Rəbbi.

---

* **3:10** Lev. 27:30; Say. 18:21-24; Qanun. 12:6; 14:22-29; Neh. 13:12

* **3:11** Çəyirtkələri – yaxud yeyənləri.

13 «Mənə qarşı sərt sözlər söylədiniz» deyir Rəbb,
«siz isə "Sənə qarşı nə söylədik?" deyə soruşursunuz.
14 Siz dediniz: "Allaha xidmət etmək faydasızdır.
Ordular Rəbbinin buyruğunu yerinə yetirsək də,
Onun önündə yas içində gəzsək də, bunlardan bizə
nə xeyir oldu? 15 İndi biz məğrurları bəxtiyar
sayırıq. Pislik edənlər işlərində uğur qazanır, Allahı
sınayanlar da cəzadan qurtarır"».
16 O zaman Rəbdən qorxanlar bir-birləri ilə
danışdı. Rəbb bu sözlərə qulaq asıb dinlədi.
Rəbdən qorxub adına hörmət edənlər üçün Onun
önündə bir yaddaş kitabı yazıldı. 17 Ordular
Rəbbi deyir: «Fəaliyyətə keçdiyim gün onlar Mənə
məxsus xalq olacaq. Bir ata özünə xidmət edən
oğluna necə rəhm edərsə, Mən də onlara elə rəhm
edəcəyəm. 18 O zaman siz salehlə pis adam, Al-
laha qulluq edənlə etməyən arasındakı fərqi yenə
görəcəksiniz».

# 4

## *Rəbbin günü*

1 Ordular Rəbbi deyir: «Budur, soba kimi yanan
o gün gəlir. Bütün məğrurlar və pislik edənlər
saman kimi olacaq. Gələn o gün onları yandıracaq.
Onlardan nə kök, nə də budaq qalacaq. 2 Ancaq
adıma hörmət edən sizlər üçün şüalarında şəfa
olan salehlik günəşi doğacaq. Tövlədən buraxılan
danalar kimi oynayacaqsınız. 3 Pis adamları tap-
dalayacaqsınız. Bu işləri etdiyim gün onlar sizin
ayağınızın altında kül olacaq» deyir Ordular Rəbbi.
4 «Qulum Musanın qanununu – Xorevdə olarkən
bütün İsrail üçün ona verdiyim qaydaları və

hökmləri yadda saxlayın. 5 * Rəbbin böyük və
dəhşətli günü gəlməzdən qabaq İlyas peyğəmbəri
sizin yanınıza göndərəcəyəm. 6 O, ataların
ürəklərini oğullarına, oğullarının ürəklərini isə
atalarına tərəf döndərəcək ki, daha Mən gəlib ölkəni
lənətləyib məhv etməyim».

* **4:5** Mat. 11:14; 17:10-13; Mark 9:11-13; Luka 1:17; Yəh. 1:21

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

---

PDF generated using Haiola and XeLaTeX on 21 Feb 2024 from source files dated 31 Aug 2023

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985